İSTANBUL

Baharın gəlişi sevinc və ruh yüksəkliyi ilə qarşılanır

Xoş müjdəli bahar gəlir, təbiət oyanır, insanların çöhrəsinə sevinc yayılır. Xalqımızın ən qədim bayramlarından biri olan Novruz Azərbaycanda olduğu kimi, Türkiyədə də yüksək əhvali-ruhiyyə ilə qeyd edilir.

Novruzun gəlişi İstanbulda böyük coşqu ilə qeyd edilib. İstanbul Türkiyə-Azərbaycan Dayanışma və Kültür Dərnəyinin (İSTAD) təşkilatçılığı ilə keçirilən bayram şənliyi Üsküdar Bulgurlu Bələdiyyə binasında baş tutub.

Tədbiri giriş sözü ilə açan **İSTAD sədri Sefer Karakoyunlu** Novruz bayramının tarixindən, ənənələrindən danışıb. O bildirib ki, günümüzə qədər gəlib çıxan Novruz ənənələri dünya mədəni irsinin ən parlaq hissəsidir: "Novruz bayramı Türk dünyasının ortaq mirasıdır. 4000 illik bir ənənədir. Türklərin bir çox xalqlarla birlikdə bu günə qədər yaşatdıqları qardaşlıq, tolerantlıq və həmrəylik bayramıdır. Bu gün gecə ilə gündüzün bərabər olduğu gündür. Uca Yaradanın rəhmət və bərəkətinin, onun bəşəriyyətə xüsusi möcüzə olduğu bir gündür".

Sefer Karakoyunlu çıxışında Çanaqqala zəfərinin 110-cu ildönümünü də xatırladıb: "Çanaqqala məzlumun zalıma, salehin haqsıza, mərhəmətlinin mərhəmətsizə qalib gəldiyi yerdir. Çanaqqala izzət və şərəflə yazılmış bir zəfər dastanıdır. Bu gün Çanaqqalanı xatırlayanda Qarabağı unutmaq olmaz. Yaşasın Türkiyə və Azərbaycanın qardaşlığı və həmrəyliyi".

Bayram tədbirində çıxış edən **Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, millət vəkili Şamil Ayrım** bayram münasibətilə türk dünyasını təbrik edib. O, Türkiyə ilə Azərbaycan arasında əlaqələrin keçmişdə olduğu kimi, gələcəkdə də möhkəmlənəcəyini vurğulayıb. Millət vəkili Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın "bir millət, iki dövlət" anlayışı ilə daimi olacağını bildirib və qeyd edib ki, Novruz bayramının birgə keçirilməsi iki xalqın və iki dövlətin dostluğunun daha bir nümunəsidir.

Azərbaycanın İstanbuldakı baş konsulluğunun konsulu Zaur Allahverdizadə çıxışında Türkiyə ilə Azərbaycan arasındakı köklü əlaqələrə toxunub. O, qədim və ənənəvi Novruz bayramının tarixi ənənələrin və bu bayramın milli dəyərlərimizin qorunmasında oynadığı roldan danışaraq vurğulayıb ki, Novruz bayramı Azərbaycanda mənşəyi ən qədim bayramlardan biridir və bu, qlobal mədəniyyət irsimizin bir parçasıdır. Dünya yaranandan xalqlar özünəməxsus adət-ənənə yaratmış və bu ənənələri nəsildən-nəslə ötürmüşlər. Azərbaycan xalqı o xoşbəxt xalqlardandır ki, özünün adət-ənənəsini yaratmış və dövrün, zamanın dəyişməsinə baxmayaraq onu yaşatmışdır.

Z.Allahverdizadə qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələri əsrlər boyu davam edir. Azərbaycan türkləri Çanaqqala döyüşündə türk qardaşlarının yanında oldular. 1918-ci və 2020-ci illərdə türklər azərbaycanlıların yanında oldular. Bu sarsılmaz dostluq və qardaşlıq əbədidir.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədr müavini Pərviz Məmmədzadə də çıxışında federasiyanın gördüyü işlər barədə məlumat verib. O, birlik və həmrəylik mesajları verərək iştirakçıları Ramazan və Novruz bayramı münasibətilə təbrik edib.

Bayram tədbiri Yılmaz Yıldırım, Sevison Suap, Zefer Kaşeli və Nihat Kılıçın musiqili çıxışları ilə yekunlaşıb. Coşqulu mahnı və melodiyalarla dolu gecə dostluq və qardaşlıq mesajlarının ən gözəl şəkildə ifadə olunduğu bir hadisə kimi yaddaşlara həkk olunub.

Qeyd edək ki, İstanbulda keçirilən tədbir Türkiyə və Azərbaycan xalqları arasında qardaşlıq və dostluq bağlarını bir daha möhkəmləndirdi. Ramazan ayının mənəvi ab-havasını və coşqulu Novruz şənliyini bir araya gətirən proqram iştirakçılar tərəfindən yüksək qiymətləndirilib.

Esmira YAZKAN ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə müxbiri.